# Ədəbiyyat Muzeyində “Nizaminin səsi” musiqili-ədəbi kompozisiyalar silsiləsindən “Gülüm” romansının təqdimatı olub

***Dekabrın 27-də AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində “Nizami Gəncəvi İli” çərçivəsində “Nizaminin səsi” musiqili-ədəbi kompozisiyalar silsiləsindən “Gülüm” romansının təqdimatı olub.***



Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin baş direktoru akademik Rafael Hüseynovun layihə rəhbəri olduğu musiqi əsəri bəstəkar Ridvan Sədirxanov və Azərbaycan klassik vokal sənətinin ifaçısı, Əməkdar artist Ramil Qasımovun birgə əməyi nəticəsində ərsəyə gəlib.

Tədbiri akademik Rafael Hüseynov açaraq başa çatmaqda olan 2021-ci ilin Azərbaycan xalqının tarixində ən xoşbəxt illərdən biri kimi yadda



qalacağını söyləyib. Akademik bildirib ki, 2021-ci ili xalqımız həm 44 günlük Vətən müharibəsində qazandığımız böyük Zəfərin ildönümünü, həm də “Nizami Gəncəvi İli”ni böyük təntənə ilə qeyd edir. Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında 2021-ci ilin “Nizami Gəncəvi İli” elan edilməsi haqqında” müvafiq Sərəncamını xatırladan R.Hüseynov başa çatmaqda olan bu il çərçivəsində ölkədə və Ədəbiyyat Muzeyində dahi şairin yubileyinin müxtəlif tədbirlərlə qeyd olunduğunu söyləyib.

“1939-cu ildə Nizaminin qarşıdan gələn 800 illik yubileyi ərəfəsində Bakıda xatirə muzeyinin yaradılması qərara alınmışdı. 1941-ci ildə SSRİ məkanında Nizami Gəncəvinin 800 illik yubileyinin təntənəli şəkildə qeyd edilməsi planı hazırlansa da, ancaq II Dünya müharibəsinin başlaması bu planın həyata keçirilməsinə imkan vermədi. Şairin 800 illik yubileyi ancaq o vaxt blokada şəraitində olan Leninqrad şəhərində Ermitajda Rusiya alimlərinin və ədəbiyyatşünaslarının iştirakı ilə qeyd edildi. 1945-ci il mayın 14-də isə Ədəbiyyat Muzeyi qapılarını tamaşaçıların üzünə açdı. Dahi şairin adını daşıyan bu muzey sonradan bütün Azərbaycan ədəbiyyatını əhatə edən bir məkana çevrildi”, - deyə R.Hüseynov bildirib.

Dahi Nizaminin zəngin yaradıcılığı barədə məlumat verən akademik onun dünya miqyasında tanınmış mütəfəkkir olduğunu deyib, böyük Azərbaycan




şairinin yubileylərinin hər zaman ölkəmizdə yüksək səviyyədə qeyd olunduğunu söyləyib. Vurğulanıb ki, “Nizami Gəncəvi İli”ni xalqımız qalib, Zəfər qazanmış xalq kimi qeyd edir.

Nizami Gəncəvinin bəşəriyyətin bədii fikir salnaməsində özünəməxsus yerə malik nadir şəxsiyyətlərdən olduğunu deyən akademik dahi şairin xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsindən danışıb. Bildirilib ki, Nizami özünün bu torpağa, bu dilə, bu mədəniyyətə bağlılığını bütün yaradıcılığında dönə-dönə ifadə edib.

“Ötən əsrin 40-cı illərində Üzeyir Hacıbəyli və yetirmələri tərəfindən Nizami Gəncəvinin qəzəllərinə mahnılar yazıldı, ilk romanslar yarandı. Bunun-la da Azərbaycan musiqisində yeni bir istiqamət yarandı. Bu gün təqdim olunan Nizaminin “Gülüm” qəzəlinə isə tanınmış bəstəkar Ridvan Sədirxanov musiqi bəstələyib, romansı klassik vokal sənətinin ifaçısı Ramil Qasımov səsləndirib”, - deyə akademik bildirib.

R.Hüseynov bəstəkar Ridvan Sədirxanov və Əməkdar artist Ramil Qasımovun yaradıcılığı barədə məlumat verib.

Akademik Rafael Hüseynov tədbirdə, həmçinin tanınmış rəssam, Əməkdar mədəniyyət işçisi Elçin Hami Axundovun “Yeddi gözəl və Bəhram şah” obrazlarının fiqurlardan hazırlanmış kompozisiyasının təqdim edildiyini diqqətə çatdırıb. Bildirilib ki, Elçin Hami Axundovun rəhbərliyi altında Ədəbiyyat Muzeyinin Bədii tərtibat və bərpa şöbəsində Nizami mövzu və süjetləri istiqamətində animasiya filmlərinin hazırlanması üzərində iş gedir. Təqdim olunan kompozisiya da həmin filmlər silsiləsinə müqəddimə kimi dəyərləndirilə bilər.

Sonra vokalist Ramil Qasımovun ifasında “Gülüm” romansının videoçarxı nümayiş etdirilib.

***AZƏRTAC***